"Təsdiq edirəm"
Rektor prof. E.B. Hüseynov
________________
"___"_________ 2021-ci il

# SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ ÜZRƏ "ƏN YAXŞI MONOQRAFİYA" MÜSABİQƏSİNİN KEÇİRİLMƏSİ HAQQINDA

# ƏSASNAMƏ

Sumqayıt Dövlət Universitetinin Elmi Şurasının 15. 12. 2021-ci il tarixli iclasının (protokol №05) qərarı ilə təsdiq edilmişdir.

Sumqayıt - 2021

**Sumqayıt Dövlət Universiteti üzrə "Ən yaxşı monoqrafiya" müsabiqəsinin keçirilməsi haqqında**

# ƏSASNAMƏ

## 1. Giriş

1.1. Sumqayıt Dövlət Universiteti üzrə "Ən yaxşı monoqrafiya" müsabiqəsi haqqında Əsasnamə (bundan sonra - Müsabiqə), Universitetinin əməkdaşları tərəfindən nəşr etdirilmiş monoqrafiyaların müsabiqə yolu ilə seçilməsini və mükafatlandırılmasını tənzimləyir.

1.2. Monoqrafiya dedikdə, müəyyən bir mövzu üzrə elmin inkişafına töhvə verən yeni fərziyyələr, nəzəriyyələr və həllərin irəli sürüldüyü elmi əsər başa düşülür.

1.3. Monoqrafiyada onun mövzusu üzrə elmi-tədqiqat işlərinin ən dolğunluğu ilə araşdırıldığı, həlli tapılan məsələlərlə bağlı ədəbiyyatın ümumiləşdirilərək təhlil olunduğu nəticələr və elmi yeniliklərlə bağlı müəllifin (həmmüəlliflərin) şərhləri verilir.

1.4. Müsabiqənin təşkilinin məqsədi universitetdə mütəxəssis və yüksək ixtisaslı kadrların hazırlanmasının keyfiyyətinin yüksəldilməsini, universitet alimlərinin nailiyyətlərinin təbliğini və elmi biliklərin yayılmasını təmin etməkdən ibarətdir. Əldə etdikləri nailiyyətlərinə görə universitet əməkdaşlarının elmi fəaliyyətinə maliyyə dəstəyi də verilir.

1.5. Müsabiqənin əsas məsələləri aşağıdakılardan ibarətdir:

1.5.1. Universitetdə elmi problemlərin həllinə yönəlmiş elmi-tədqiqat işlərinin həyata keçirilməsinin intensivləşdirilməsi.

1.5.2. Elmi-tədqiqat işlərinin nəticələrinin monoqrafiya şəklində formalaşdırılması.

1.5.3. Universitet əməkdaşlarının elmi nailiyyətlərinin elmi ictimaiyyətdə və kütləvi informasiya vasitələrində yayılması.

1.6. Bu Əsasnamə müsabiqənin keçirilməsi qaydalarını, sənədlərin və materialların təqdim olunması şərtlərini tənzimləyir.

## 2. Müsabiqənin təşkili

2.1. Müsabiqənin təsisçisi universitetin rektorudur.

2.2. Müsabiqə Elmi və innovasiyalar üzrə prorektorun rəhbərliyi ilə iki ildə bir dəfə olmaqla keçirilir və kafedraların elmi istiqamətlərinə uyğun olaraq fakültələr üzrə (yekunda universitet üzrə) ən yaxşı elmi əsərin seçilməsini və qaliblərin mükafatlandırrılmasını nəzərdə tutur.

2.3. Müsabiqə universitet rektorunun əmri ilə elan edilir, əmrdə müsabiqə komissiyasının yaradılması və tərkibi, monoqrafiyaların təqdim edilməsi və müsabiqənin nəticələrinin yekunlaşdırılması üçün son tarixlər müəyyən edilir.

2.4. Müsabiqədə hal-hazırda universitetdə fəaliyyət göstərən professor-müəllim heyəti, doktorantlar, aspirantlar və tədqiqatçılar iştirak edə bilərlər.

2.5. Müsabiqədə qriflə nəşr olunan elmi əsəri ilə müəllif/həmmüəlliflər iştirak edə bilərlər.

2.6. Müsabiqəyə təqdim edilən monoqrafiyaların həmmüəllifləri SDU-nun əməkdaşları (ən azı 50 faiz) ilə yanaşı digər elm və təhsil müəssisələrin əməkdaşları da ola bilərlər.

2.7. Müsabiqəyə təqdim olunan elmi əsərin həmmüəlliflərinin say tərkibinə məhdudiyyət qoyulmur.

2.8. Müsabiqəyə Azərbaycan Respublikasının dövlət və özəl digər universitetlərin mükafatlarına layiq görülmüş, digər müsabiqələrin qalibi olmuş monoqrafiyalar qəbul edilmir.

2.9. Müsabiqə laureatları əvvəlki müsabiqədə iştirak vaxtından asılı olmayaraq, yeni monoqrafiyası ilə iştirak etmək hüququna malikdirlər.

2.10. Müsabiqəyə hər müəllifin (həmmüəllifin) yalnız bir elmi əsəri qəbul olunur.

2.11. Müsabiqənin şərtlərinə cavab verən elmi əsərlər kafedra iclasının protokolundan çıxarışla fakültə Elmi Şurasına təqdim olunur.

2.12. Fakültə Elmi Şurası ən yaxşı bir monoqrafiyanı seçərək, protokoldan çıxarış və digər sənədlərlə birlikdə, Müsabiqə Komissiyasına təqdim edir.

2.13. Müsabiqə Komissiyası hər bir monoqrafiyanın təqdimatını dinləyir, onu qiymətləndirir, qaliblərin təyin olunması və mükafata təqdim edilməsi barədə qərar qəbul edir.

2.14. Masabiqənin keçirilməsi qaydaları, gedişatı və nəticələri barədə məlumatlar SDU-nun rəsmi elektron saytında yerləşdirilir.

### 3. Monoqrafiyaların qiymətləndirilməsi

3.1. Müsabiqəyə təqdim olunan monoqrafiyalar:

- konkret elmi istiqamətin, elmlərarası əlaqənin, o cümlədən, texnikasının, texnologiyasının və mədəniyyətinin nailiyyətlərini işıqlandıran elmi əsər olmalı;
- elmin müasir nailiyyətlərini əks etdirməli;
- mövzuya aid istinad materialları, göstəriciləri, elmi ədəbiyyat siyahıları ilə təmin olunmalıdır.

3.2. Müsabiqədə monoqrafiyanın qiymətləndirilməsinə təsir edən göstəricilər:

- ✓ elmi yeniliyi və praktiki əhəmiyyəti;
- ✓ materialın təqdim edilməsinin ardıcıllığı və nəticələrin əsaslı olması;
- ✓ rəylərin mövcudluğu;
- ✓ yerli və xarici proqramlar və fondlar tərəfindən dəstək;
- ✓ dövriyyə;
- ✓ həcmi;
- ✓ nəşriyyatın statusu.

3.3. Müsabiqə aşağıdakı üç nominasiya üzrə keçirilir:

- ✓ təbiət və texniki elmlər;
- ✓ humanitar elmlər;
- ✓ sosial-iqtisadi elmlər.

3.4. Müsabiqə komissiyasına təqdim olunmalı sənədlər:

- ✓ monoqrafiya (elektron daşıyıcı ilə birlikdə) - 1 nüsxə;
- ✓ aşağıdakıları əhatə edən ərizə:
  - monoqrafiyanın adı;
  - nominasiyanın adı;
  - əsərin müəllifi (həmmüəllifləri) haqqında məlumat - soyadı, adı, atasının adı, tutduğu vəzifə, elmi dərəcəsi və elmi adı, əlaqə telefonu, elektron poçtu;
  - işin annotasiyası (1 səhifəyə qədər həcmdə);
- ✓ monoqrafiyanın nəşrinə elmi fondlar və ya proqramlar tərəfindən dəstəyin olmasını və onların əhəmiyyətini təsdiq edən sənəd.

3.5. Monoqrafiyanın əhəmiyyətinin qiymətləndirilməsi aşağıdakı komponentlər üzrə balların cəmi ilə müəyyən edilir (maksimum 24 bal):

- monoqrafiyanın elmi aktuallığı və əhəmiyyəti (0-dan 10 bala qədər);
- monoqrafiyanın resenziyasının olması (ön söz-elmlər doktoru olduqda 1 bal; fəlsəfə doktoru olduqda 0,5 bal);
- materialın təqdimatının ardıcıllığı və nəticələrin əsaslandırılması (0-dan 3 bala qədər);
- tiraj, nüsxələrin sayı (50 nüsxəyə qədər tiraj üçün 0,5 bal, 100 nüsxəyə qədər tiraj üçün 1 bal və 100 nüsxədən çox tiraj üçün 1,5 bal);
- elmi fondlar və ya proqramlar tərəfindən monoqrafiyanın nəşrinə dəstəyin olmasını nəzərə alan göstərici (belə dəstək olduqda 2 bal);
- çap dizaynı (0-dan 3bala qədər);
- həcmi (1bal - 10 çap vərəqinədək; 2 bal - 10 və daha çox çapvərəqi);
- ISBN seriya nömrəsinin olması və Beynəlxalq Elmi İstinad Bazasında yerləşdirilməsi (1,5 bal - ISBN mövcuddur və bazada yerləşdirilib, 1bal - ISBN mövcuddur, lakin bazada yerləşdirilməyib, 0 bal - monoqrafiyanın ISBN-i yoxdur).

**4. Təqdim olunan monoqrafiyalara Müsabiqə Komissiyasında baxılması, qaliblərin müəyyən olunması və mükafatlandırılması barədə qərarların qəbulu**

4.1. Monoqrafiyaların və müvafiq sənədlərin qəbulu üzrə elan olunmuş müddət başa çatdıqdan sonra Müsabiqə Komissiyası onların siyahısını tərtib edir və müsabiqənin tələblərinə uyğunluğu haqqında ilkin ekspertizasını aparır. Bu məqsədlə müvafiq elm sahələri üzrə SDU əməkdaşları ilə yanaşı kənar təşkilatlardan da mütəxəssislər cəlb edilə bilər.

4.2. Müsabiqə Komissiyası 3-cü bölmədə göstərilən tələblərə cavab verməyən monoqrafiyanı müsabiqəyə buraxmamaq hüququna malikdir.

4.3. Müsabiqə Komissiyasının iclası üzvlərinin ən azı 2/3-si iştirak etdikdə qərar qəbul etmək səlahiyyətinə malikdir. Qərar İclasda iştirak edən komissiya üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir.

4.4.Müsabiqə Komissiyasının iclasında hər bir monoqrafiya:

- qoyulan tələblər əsasında ayrılıqda müzakirəyə çıxarılır,
- müəllif (həmmüəlliflərdən biri) tərəfindən işin təqdimatı aparılır,
- komissiya üzvləri tərəfindən müvafiq qiymətləndirilməsi aparılır (qeyd: təqdimatı digər maraqlı tərəflər də dinləyə bilərlər).

Təqdim olunan bütün işləri dinlədikdən və müvafiq qiymətləndirmələr apardıqdan sonra Müsabiqə Komissiyası hər nominasiya üzrə qalib haqqında qərar qəbul edir.

4.5. Monoqrafiyasını müsabiqəyə təqdim etmiş Müsabiqə Komissiyasının üzvü mükafatlandırılması tövsiyə olunan əsərlərin müəyyən edilməsi zamanı səsvermədə iştirak edə bilməz.

4.6. Müsabiqə Komissiyası hər bir nominasiya üzrə qalib seçilmiş monoqrafiyanın müəllif(lər)inin mükafatlandırılması barədə Universitet Elmi Şurası qarşısında vəsatət qaldırır.

4.7. Müəlliflər monoqrafiyaların və digər materialların vaxtında təqdim edilməsinə və keyfiyyətinə görə şəxsən məsuliyyət daşıyırlar.

4.8. Müsabiqəyə təqdim edilmiş monoqrafiyaların bu Əsasnamənin tələblərinə uyğun olaraq ekspertizadan keçirilməsinə Müsabiqə Komissiyası cavabdehdir.

4.9. Müsabiqənin qaliblərinə Sumqayıt Dövlət Universiteti üzrə "*Ən yaxşı monoqrafiya müsabiqəsinin qalibi*" Diplomu və pul mükafatı təqdim olunur. Pul mükafatının məbləği Universitet Elmi Şurasının qərarına əsasən Rektorun əmri ilə verilir. Kollektiv monoqrafiya üçün pul mükafatı həmmüəlliflərin monoqrafiyanın hazırlanmasında əməyinə uyğun olaraq bölünür.

4.10. Müsabiqə qaliblərinə mükafatların təqdim olunması təntənəli şəraitdə keçirilir.

4.11.Müsabiqədə qalib seçilmiş monoqrafiyanın nüsxəsi müəllifin/həmmüəlliflərin avtoqrafları ilə SDU-nun Elmi kitabxanasına təqdim edilir.

**Razılaşdırılmışdır:**

**Elm və innovasiyalar üzrə prorektor:**
**__________ prof. R.S. Məmmədov**

**Humanitar məsələlər üzrə prorektor:**
**__________ dos. R.A. Hüseynov**

**İqtisadi məsələlər üzrə prorektor:**
**__________ N.İ. Hacıyev**

**Redaksiya-nəşriyyat şurasının sədri:**
**__________ dos. Q.M. Mənsurov**

**Hüquqşünas:**
**__________ dos. Ə.A. Həsənova**